Əli Əliyev – 120

# "Əlincə yaddaşlı" tarixçi alim



**Naxçıvan Dövlət Universitetində ümummilli lider Heydər Əliyevin müəllimi olmuş, NDU-nun ilk rektoru, görkəmli tarixçi alim Əli Əliyevin anadan olmasının 120 illik yubileyi ilə bağlı yığıncaq keçirilib.**

Əvvəlcə iştirakçılar bu ali təhsil ocağında Əli müəllimin adına açılmış, zəngin sənədli və texniki avadanlıqlarla təchiz olunmuş auditoriya ilə tanış olublar. Sonra alimin mənalı həyat və yaradıcılığına həsr olunmuş filmin nümayişi olub.

NDU-nun rektoru Elbrus İsayev Əli Əliyevin tarix elmində xidmətlərindən, xüsusilə NDU-nun (əvvəllər Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Pedoqoji İnstitutu adlanırdı) qurulmasındakı fəaliyyətindən söz açıb. Rektor Əli Əliyevin müəllifi olduğu, dəyəri heç vaxt azalmayan "Əlincə yaddaşı" elmi-publisistik kitabı barədə də söz açıb.

AMEA Naxçıvan bölməsinin sədri, akademik İsmayıl Hacıyev, AMEA-nın müxbir üzvü, professor Hacı Fəxrəddin Səfərli çıxışlarında bildiriblər ki, Əli Əliyev vətəndaş mövqeyi ilə yaşıdlarına və bugünkü nəslə örnək həyatı ilə həmişə qəlblərdə yaşayacaqdır.

Yığıncaqda tarix elmləri doktoru, dosent Eynulla Mədətli, fəlsəfə elmləri doktoru, professor Məmməd Rzayev, tarix elmləri doktoru Xəzər Hüseynov, Naxçıvan Xan Sarayı Tarix Memarlıq Dövlət Muzeyinin direktoru Nəzakət Əsədova böyük alim , vətəndaş və pedaqoq Əli Əliyevin tarix elminə əvəzsiz xidmətlərinə həsr olunmuş məruzələr ediblər.

Konfransın sonunda Əli Əliyevin nəvəsi, tarix üzrə fəlsəfə doktoru Nail Əliyev babası ilə bağlı xatirələrindən danışaraq, yığıncaq iştirakçılarına dərin minnətdarlığını bildirib.

***Kəmalə ABDİNOVA***
***XQ***